*AMEA Nəsimi adına Dilçilik İnstitutu,*
*Dilçilik araşdırmaları, 2023, №3* *ISSN: 2664-5432*
*Səhifə: 118-127*
*http://doi.org/10.59849/2664-5432.2023.3.118*

**AYŞƏN İSMAYILLI***

# QARABAĞ BÖLGƏSİNİN SPESİFİK ƏLAMƏTLƏRİNƏ ƏSASƏN YARANAN MİKROTOPONİMLƏRİ

**XÜLASƏ**

Hər hansı yerin ad almasının tarixi qədim zamana söykənir. İnsanlar əraziyə relyef quruluşuna, flora və faunasına və s. görə ad vermişlər. Dilimizdə mövcud olan yer-yurd adları insanların ətraf aləmi dərketməsinin nəticəsində meydana gəlir. Ərazinin böyüklüyünə və kiçikliyinə görə toponimlər 2 qrupa ayrılır: makrotoponimlər və mikrotoponimlər. Makrotoponimlər böyük coğrafi obyektlərin adını bildirir. Mikrotoponimlər (xəritələrdə qeydə alınmayan, dar sintaqmatik kontekstdə (müəyyən ərazidə məskunlaşan əhalinin nitqində) işlənən kiçik yer-yurd adlarıdır. Belə onimlər (kiçik dağ, dərə, təpə, çöl, düz, qobu, yurd, yer, yol, yarğan, yamac, yal, məhəllə, cığır, körpü, dikdir, uçurum, xarabalıq, qəbiristanlıq, kiçik çay, bulaq, göl, gölməçə, kurqan, gədik, yaylaq, qışlaq, ocaq, pir, ziyarətgah, türbə, bağ, keçid, və s.) obyektlərin xarakterik əlamətlərini müəyyən edir. Daha sonra nominasiya prosesi həyata keçirilir. Bu zaman müxtəlif üsullardan istifadə oluna bilir. Nominasiya prosesinin xarakterik üsulları və vasitələri vardır. Hər hansı coğrafi obyektin meydana çıxması müəyyən tarixi hadisələrin nəticəsi kimi özünü göstərir, həmçinin yerin geomorfoloji quruluşu əsas götürülür.

**Açar sözlər:** *Qarabağ, mikrotoponim, makrotoponim, coğrafi obyekt, nominasiya*

Toponimikada el-oba adlarının nominasiyası prosesi olduqca mühüm əhəmiyyət kəsb edir. Bu haqda dilçi alimlərimiz öz fikirlərini əsaslandırır:

Vilayət Əliyev hesab edir ki, adyaranma prosesindəki qanunauyğunluq dünya dillərinin əksəriyyətində mövcuddur. Bütün sirr ondadır ki, insanlar həmişə onları əhatə edən obyektləri adlandırarkən həmin obyektlərin insanlarda yaratdıqları təsiri, ümumi təsərrüfatı ifadə etməyə çalışmışlar. Lakin bunlar ümumi və keçici xarakter daşımışdır. Hər bir xüsusi adlar kimi, toponimlərin də yaranması insan təfəkkürünün inkişafı, mücərrəd anlayışların yaranması, coğrafi anlayışların fərdiləşdirilməsi və konkretləşdirilməsi ilə bağlı olmuşdur" [Əliyev: 1999, s.42]. Bu zaman isə konkret şəkildə coğrafi obyektin adı yaranır, yeni semantik məna kəsb edir və yerli əhali tərəfindən işlək şəkildə işlənir.

Onomastikada advermə və adyaratma prosesindən bəhs edən Reyhan Həbibli yazır: "İsim - əşya, obyekt" münasibəti nominasiyanın əsasını təşkil edir. Nominasiya predmetlərin ayrı-ayrı söz və söz birləşmələri ilə göstərilməsidir. Bu zaman dil vahidləri işarə etdikləri obyektlərlə əlaqələndirilir. Nominasiya maddi obyektlərin işarələnməsidir, çünki ilk növbədə predmetlər, şəxslər adlandırılır.

Obyektiv gerçəkliyin, insanın subyektiv aləminin praktik mənimsənilməsi, dərk edilməsi və inikası ilə bağlı olan nominativ fəaliyyət artıq hazır olan adların sadə inikası və tamamilə yeni adların yaradılması ilə məhdudlaşmır. Söz işarələri dünya haqqında məlumatların, biliklərin saxlanma vasitəsi, dil təfəkkürü vasitəsi kimi xidmət edir" [Həbibli: 2021, s.115-116].

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Toponimika şöbəsi, kiçik elmi içşi.
Email: *aysheaxmedova4@gmail.com*

Budaq Budaqov toponimlərin yaranması ilə əlaqədar olaraq qeyd edir: "Coğrafi adların yaranma səbəbləri müxtəlifdir. Buraya təbii şəraitlə, etnonimlərlə, sayla, iylə, dadla, müalicə əhəmiyyəti ilə, temperaturla, rənglə, sənətlə, texniki inkişafla, təbii sərvətlərlə, kənd təsərrüfatı sahələri ilə və s. ilə bağlı yaranan toponimlər daxildir.

Mikrotoponimləri – kiçik yer adlarını yaradan da, yaşadan da xalqdır. Yazıya alınmamış toponimlər mahiyyətcə ancaq xalq yaddaşında yaşayır. Əgər mikrotoponimlər ancaq yaddaşda olub, yazılı ədəbiyyata düşməyibsə, onların yaşama ehtimalı çox azdır" [Budaqov: 1994, s.12].

Coğrafi obyektlərin nominasiyasını araşdıran Nadir Məmmədovun fikrincə, "Toponimik nominasiya dedikdə yalnız oronimik, hidronimik, oykonimik, zoonimik, fitonimik obyektlərə advermə nəzərdə tutula bilər, çünki coğrafi obyektlərin bu növlərində advermədə əsasən xarakterik əlamət ön plana çəkilir. Halbuki etnotoponimlərdə əlamət yox, obyektlərin xalqa, tayfaya, nəslə, tirəyə və şəxsə mənsubiyyəti öz əksini tapır. Buradan aydın olur ki, toponimik nominasiya əsasən oronimlərə, müəyyən qədər isə hidronimik toponimlərə aiddir. Ona görə ki, oroqrafik obyektlərə advermədə rəng, say, bitki və heyvan növlərinin adlarını bildirən terminlər əsas yer tutur" [Məmmədov: 2007, s.196].

Ancaq toponimikada advermə müxtəlif şəkildə özünü göstərə bilir. Toponimik nominasiya coğrafi obyektlərin müxtəlif növlərini, məkanını, bir obyektin digəri ilə əlaqəsini xarakterizə edir. Bu halda onların nə zaman yaranması da diqqət mərkəzində olur. Qarabağ bölgəsinin mikrotoponimlərinin ad alması baxımından tədqiq olunması göstərdi ki, bir sıra coğrafi onimlər spesifik əlamətlərinə əsasən adlandırılmışdır. Belə el-oba adları digər mikrotoponimlərdən fərqlidir.

Reyhan Həbibli mikrotoponimləri nominasiya prinsipləri üzrə təsnif edir: "1) kvalitativ – coğrafi obyektin özünün xüsusiyyətlərinə görə adlar; 2) lokativ – adlandırılan obyektin digər obyektlərlə əlaqəsi üzrə adlar, yanındakı predmetə görə adlar; 3) posessiv – insanla əlaqəsi üzrə adlar (obyektin əsasını qoyan və ya onun sahibi)" [Həbibli: 2021, s.79].

Ümumi olaraq mikrotoponimlər süxurlarının rənginə, tərkibinə, ölçülərinə, say tərkibinə, suyunun dadına əsasən, suyunun rejiminə, yerləşdiyi cəhətə, baş vermiş hadisəyə, əsasən, bəzi səbəblərdən, bu və ya digər əşyalara oxşarlığına əsasən, geomorfoloji terminlərdən, insan və heyvanların bədən nüzvlərinə oxşadılmasına, əsasən, mənası məlum olmayan, yaşayış məntəqələrindən ad alan, təbiət hadisələrin adı ilə bağlı olan, patronimlərdən ad alan, posessiv (yiyəlik, sahiblik, aidlik) bildirən, memorial mikrotoponimlər, inşaat sözlərindən ad alan, sənət, peşə, məşğuliyyət bildirən sözlərdən ad alan, miflə bağlı sözlərdən ad ala bilir. Bu vahidləri spesifik əlamətlərinə əsasən aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

**1.Rəng, keyfiyyət, əlamət bildirən terminlərdən düzələn mikrotoponimlər.** Qarabağ ərazisində qeydə alınan mikrotoponimlər (dağ, dərə, təpə, zirvə, eniş, yoxuş, qaya, qala və s.) süxurlarının rəngi, və ya keyfiyyət, əlamət bildirən sözlərdən istifadə olunur. Bu növə aid olan coğrafi onimlər yaranarkən ağ, qara, qırmızı, sarı, ala, göy, qızıl və b. rənglərdən istifadə olunur. Bu mikrotoponimləri aşağıdakı şəkildə qruplaşdırmaq olar:

**1.Ağ komponentli mikrotoponimlər.** Budaqov yazır: " "ağ sözünün söz çalarlığı çox genişdir. Azərbaycan dilində olan hər hansı bir sözün söz çalarlığı şaxələrinin bütün incəliklərini ancaq gözünü açıb həmin dildə danışan, öz ana dilindən qida almış şəxslər daha dərindən bilər. Ona görə elmi ədəbiyyatda rəng bildirən "boyanimlər", "xromonimlər" sözlərinin mənalandırılması özünün tam dərinliyini tapa bilmir. Həyatda "ağ" sözü müsbət və həm

də mənfi mənada işlədilir" [Budaqov: 1994, s.211]. Dilimizdə ağ sözü müxtəlif mənalarda işlənir: "Qar, süd, təbaşir; təmiz yazılmamış; ağımtıl ləkə; gümüş, yaxud ağ metaldan kəsilmiş; ifrat, mübaliğəli, açıqdan-açığa" [Azərbaycan dilinin izahlı lüğəti: I, 2006, s.52]. Bu mikrotoponimlər isə süxurunun rəngi ağ, işıqlı, aydın olduğu üçün belə ad almışdır. Məsələn: Ağ cığır, Ağ qobu, Ağ yoxuş, Ağburun dağı, Ağdaş, Ağqaya, Ağ gədik, Ağ güney, Ağ qaya, Ağ qəbir, Ağ çökək, Ağ quzey, Ağbulaq (Ağdam rayonu); Ağcaçay, Ağ çala yatağı (Ağcabədi rayonu); Ağ yoxuş, Ağbaş yeri, Ağbaşı dağı, Ağburun dağı, Ağdaş, Ağqaya, Ağyoxuş düzü (Xocavənd rayonu); Ağdaş dərəsi, Ağqaya (Xocalı rayonu); Ağqaya (Şuşa rayonu); Ağbaşlı, Ağ qaya, Ağ dərə, Ağ təpə, Ağ cığır, Ağ Murad təpəsi, Ağöylə ocağı, Ağsənəm dərəsi, Ağbayır, Ağqaya, Ağbulaq, Ağdaş yüksəkliyi (Füzuli rayonu) və s.

**2. Qara komponentli mikrotoponimlər:** Qara sözünün bir çox mənaları vardır: "Bütün rənglərin ən tündü, ən tutqunu; his, kömür rəngi; çirkli, kirli, tünd bir şeyə boyanmış, yaxud adi rənginə nisbətən daha tünd, daha tutqun; yazı, xətt, hərf; ağır, mənhus, pis, kədər doğuran, qəm gətirən, qorxulu; yas, matəm mənasında" [Azərbaycan dilinin izahlı lüğəti: III, 2006, s.45]. Mikrotoponimlərin tərkibində qara rəng mənasında işlənir. Məsələn: Qaraqaya, Qara güney, Qara qobu, Qaratəpə (Ağdam rayonu); Qarasu, Qaraköbər, Qaratəpə (Ağcabədi rayonu); Qara qaya, Qaraarxac dərəsi, Qaradərə, Qaradolaq məzrəsi, Qarazəmi örüşü (Xocavənd rayonu); Qaraqaya bulağı (Şuşa rayonu); Qara kaha (Xocalı rayonu); Qara Xatunabad, Qarabulaq, Qaraqovaq, Qaraqoyunlu, Qarakollu, Qaraköpək yurdu, Qaraarxac dərəsi, Qarabulaq yeri, Qarabulaq kurqanları, Qarabulaq nekropolu, Qaraburunlu, Qaraquzey, Qaragüllü qışlağı yeri, Qaratəpə, Qaratikanlı dərə, Qara bulaq, Qarabulaq, Qaraməmmədli bulağı (Füzuli rayonu); Qara güney (Tərtər rayonu) və s.

**3. Qırmızı komponentli mikrotoponimlər:** Qırmızı sözü "qan rəngli; al; gözəllik, parlaqlıq, aydınlıq, fərəh doğuran şey mənasında; nəzakətsizlik dərəcəsində açıq; açıq danışan, sözü üzə deyən" [Azərbaycan dilinin izahlı lüğəti: III, 2006, s.144] mənalarında işlənə bilir. Mikrotoponimlərin tərkibində süxurlarının rəngi qızılı təhər olduğu üçün belə adlanmışdır. Məsələn: Qırmızı dərə, Qırmızı qobu (Ağdam rayonu); Qırmızı dərə, Qırmızı təpə (Şuşa rayonu);

**4. Sarı komponentli mikrotoponimlər:** Qara Məşədiyev yazır: "Azərbaycan dilində bu söz nəinki sarı mənasını daşıyır, hətta, başqa mənalarda da çıxış edə bilir. Artıq sübut olunub ki, ümumtürk saruq "sarı" və sarıq "sarılıq" – (buradan) da azərbaycanca saruluq "v" hərfini itirərək omonimlik sıra təşkil etmişdir. Sarı – "tərəf, istiqamət" (evə sarı), sarı – rəng (bildirir), sarı – xüsusi şəxs adıdır, (sarı – böyük, iri həcmli mənasında)" [Məşədiyev: 2010, s.32]. Sarıdəhnə, Sarı dərə, Sarı güney, Sarıdərə (Ağdam rayonu); Sarıyal (Xocavənd rayonu); Sarıburun, Sarıqaya, Sarıyoxuş, Sarıgüney (Şuşa rayonu); Sarı bazı, Sarı yal, Sarıbaba yalı, Sarı yoxuş, Sarılar dərəsi, Sarıtəpə (Füzuli rayonu);

**5. Boz komponentli mikrotoponimlər:** Boz sözü dilimizdə bu şəkillərdə qeydə alınmışdır: "Kül rəngli, qara rənglə ağ rəngin qarışmasından əmələ gələn; tutqun, dumanlı, çiskin; bitkisiz, çılpaq; utanmaz, nəzakətsiz, həyasız, çəkinməyən, sərt, qaba danışan" [Azərbaycan dilinin izahlı lüğəti: I, 2006, s.344]. Mikrotoponimlərin tərkibində isə çılpaq, tutqun, bitkisiz mənalarını bildirir. Məsələn: Bozdağ, Bozqaya, Boz dərə, Boz güney, Boz qobu, Boz quzey, Bozətəpə (Ağdam rayonu); Bozdağ, Boz bazı (Xocavənd rayonu); Bozqaya (Xocalı rayonu);

**6. Qızıl komponentli mikrotoponimlər:** Qızıl sözü "Rəngi sarı, bahalı bəzək şeyləri və s. qayrılan və dəyər vahidi kimi işlədilən qiymətli metal; al, qırmızı; qızıl rəngində olan, parlaq sarı, qızıl kimi ləyaqətli, çox gözəl, çox yaxşı" [Azərbaycan dilinin izahlı lüğəti: III, 2006, s.157] kimi mənaları ifadə edir. Mikrotoponimlərin tərkibində isə qırmızıya çalan anlamında işlənir. Məsələn: Qızıl qaya, Qızıllı təpə, Qızılqaya, Qızılgüney (Ağdam rayonu); Qızıl dərə ayağı, Qızıldərə, Qızılqaya, Qızıltəpə (Xocavənd rayonu); Qızılbulaq (Xocalı rayonu); Qızılqaya, Qızıldaş qayası (Şuşa rayonu); Qızılqaya yüksəkliyi, Qızıl qaya, Qızıltəpə, Qızıl arx, Qızıl bulaq (Füzuli rayonu); Qızılqaya (Xocalı rayonu); Qızıl təpə (Tərtər rayonu) və s.

**7. Göy komponentli mikrotoponimlər:** "Göy sözünü bildirən toponimlər göy – səma və bitkin rəngi ilə bağlı olduğundan onların məzmun dairəsi çox genişdir. "Göy" eyni zamanda "xəstəlik", "qan qaralığı" rəngdir (uşaq gömgöy göyərib"). Göy eyni zamanda suyun (dəniz, göl, nohur, okean) rəngini özündə əks etdirdiyindən onlara hidronimlərdə tez-tez rast gəlinir" [Budaqov: 1994, s.217]. Göytəpə, Göyarx dərəsi (Ağdam rayonu); Göytala, Göyqaya, (Şuşa rayonu); Göyəhmədli oymağı, Göy arx, Sarı arx, Sarı bulaq, Sarısu arxı (Füzuli rayonu);

**8. Ala komponentli mikrotoponimlər:** B.Budaqov qeyd edir: "Azərbaycanda "ala" rəng adı bildirən coğrafi adlar da vardır. "Ala" sözü ilə yaranmış toponimlər, adətən, dağın və ya hər hansı bir coğrafi obyektin ümumi görkəmini meşədən, çəməndən, qayalıqdan, müxtəlif rəng çalarından kəskin fərqi (kontrast) olan coğrafi adlara verilmişdir" [Budaqov: 1994, s.216]. Ala qaya (Ağdam rayonu); Alaqarğı (Füzuli rayonu); Ala qaya, Ala göl (Ağcabədi rayonu) və s.

**2. Süxurların tərkibinə əsasən yaranan mikrotoponimlər:** Dəlikdaş, Daşlı yal, Daşlı dərə (Ağdam rayonu); Daşlı yal, Daşlı dağ, Daşlı təpə, Daşlıq təpə, Daştəpə kurqanı (Xocavənd rayonu); Daşlı arx, Daşlı bulaq (Xocalı rayonu); Daşlı bulaq (Şuşa rayonu); Kükürdlü yer (Füzuli rayonu); Əhənglitəpə (Ağcabədi rayonu); Daşlı çöl (Tərtər rayonu).

**3. Obyektin ölçülərinə əsasən əmələ gələn mikrotoponimlər.** Coğrafi obyektləri insan böyük və kiçik olmasından asılı olaraq adlandırmışdır. Belə adlar əlamətlərinə əsasən fərqlidir: Böyüktəpə, Kiçiktəpə (Ağdam rayonu); Balaca oyuqlu, Balaca zoğallıq, Böyük Qala, Böyük Qaya, Böyük Tağlar yalı, Kiçik Həkəri çayı (Xocavənd rayonu); Böyük bulaq, Böyük arx (Xocalı rayonu); Böyük Cümə məscidi (Şuşa rayonu); Böyük ilanlı dərə, Böyük yer, Kiçik ilanlı dərə (Füzuli rayonu), Kiçik kurqan (Ağcabədi rayonu); Böyüktəpə kurqanı, Böyük çınqıl (Tərtər rayonu) və s. aid etmək olar.

**4. Səthin bitkisiz olmasına əsasən yaranan mikrotoponimlər.** Bir qrup coğrafi obyekt vardır ki, səthinin bitkisiz olmasına əsasən adlandırılmışdır. Belə mikrotoponimlərə aiddir: Keçəl yal, Keçəl təpə (Xocalı rayonu); Çılpaqqaya, Keçəl yal (Ağdam rayonu); Keçəldağ aşırımı (Şuşa rayonu), Keçəl qaya, Keçəltəpə (Füzuli rayonu) və s.

**5. Say tərkibinə əsasən yaranan mikrotoponimlər.** Bu qrupa aid olan mikrotoponimlər obyektin sayına əsasən əmələ gəlmişdir və tərkibində yalqız, qoşa, əkiz, cüt, dörd, yeddi və s. sözlər qeydə alınır.

Qara Məşədiyev toponimlər haqqında belə yazır: "Toponimlərin tərkibində sıra saylarına da rast gəlirik. Belə ki, həmin toponimlərin tərkibində "birinci", "ikinci", "üçüncü", "dördüncü" sayları işlədilir. Sıra sayları eyniadlı yaşayış məntəqələri bir-birinə yaxın olduqda toponimlərin birinci komponenti kimi çıxış edir və onları bir-birindən fərqləndirir. Belə yaşa-

yış məntəqələri əsasən, eyni yaşayış məntəqəsinin bir neçə yerə ayrılması, parçalanması və əhalinin müxtəlif yerlərdə məskən salması nəticəsində meydana gəlmişdir" [Məşədiyev: 2007, s.109].

Qarabağ bölgəsində də belə onimlərə rast gəlinir. Məsələn: I Yüzbaşılı, II Yüzbaşılı yaşayış yeri, 1 saylı Vəlibəyli, 2 saylı Vəlibəyli, 3 saylı Vəlibəyli, 1 saylı Sultanbud, 2 saylı Sultanbud, 3 saylı Sultanbud yaşayış yeri, 1 saylı İmamqulibəyli, 2 saylı İmamqulubəyli, 3 saylı İmamqulibəyli, 4 saylı İmamqulibəyli, 5 saylı İmamqulibəyli, 6 saylı İmamqulibəyli, 7 saylı İmamqulibəyli, 8 saylı İmamqulibəyli, 9 saylı İmamqulibəyli yaşayış yeri, 1 saylı Xındırıstan kurqanı, 2 saylı Xındırıstan kurqanı, 1 saylı Çəmənli, 2 saylı Çəmənli yaşayış yeri, 1 saylı Səfərli, 2 saylı Səfərli yaşayış yeri, Cüt təpə, Ekizlər təpəsi, Yeddi xırman, Yedditəpə, Əkiz təpə, Yalqız təpə, Dördtəpə, 1saylı Qoşatəpə, 2 saylı Qoşatəpə, İkiyol dərəsi (Ağdam rayonu); Tək qəbir, Tək təpə, Üçbulaq dağ, Üçtəpə, Tək bulaq, Üç bulaq, Üçgöz bulaq, Aşıqlı Qoşa gümbəzi (Xocavənd rayonu); Qoşa bulaq yeri, Qoşa bulaq talası, Qoşaçinar, Doqquzdərə, Doqquzdərə köbəri, Dördçinar güneyi, Yedditəpə, Tək tut, Üçarmud təpəsi, Üçocaq yalı, Üçocaq təpəsi, Qoşa bulaq, Qoşakəhriz, Dördgözlü bulaq, Dördçinar bulağı, Dördçinar kəhrizi, Yedditəpə bulağı, Üçbulaq (Füzuli rayonu); 1 saylı Sarıcalı yaşayış yeri, 2 saylı Sarıcalı yaşayış yeri, Cüttəpə yaşayış yeri, Üçtəpə, Qoşatəpə (Ağcabədi rayonu) və s.

**6. Suyun dadına əsasən yaranan mikrotoponimlər:** Bu mikrotoponimlər rayon ərazisindən axan suların dadı ilə əlaqədar olaraq meydana çıxmışdır. Burada acı, şor, duzlu kimi sözlərdən istifadə olunur. Məsələn: Acıdərə (Ağdam rayonu); Şorbulaq (Ağcabədi rayonu); Şorbulaq, Şor bulaq, Şorgöl, Şorruca arxı (Xocavənd rayonu); Şor bulaq, Şorca bulaq (Füzuli rayonu); Şor bulaq (Şuşa rayonu); Şortəpə nekropolu (Bərdə rayonu); Duzlu bulaq, Şor bulaq (Xocalı rayonu) və s.

**7. Suyun rejiminə əsasən ad alan mikrotoponimlər.** Suyunun rejiminə əsasən ad alan mikrotoponimlərin quruluğu əsas götürülür. Məsələn: Quru dərə (Ağdam rayonu); Quru bulaq, Quruçay, Soyuq bulaq, Soyuqbulaq, Quru çökəklik, Quru dərə, Quru qobu, Quru yal, Sulu dərə (Xocavənd rayonu); Quru dərə, Soyuqbulaq (Xocalı rayonu); Quru dərə, Susuz dərə (Füzuli rayonu); Bol bulaq (Tərtər rayonu) və s.

**8. Yerləşdiyi cəhətə əsasən yaranan mikrotoponimlər.** Bir qrup mikrotoponimlər yerləşdiyi cəhətə əsasən əmələ gəlmişdir. Bu onimlərin tərkibində quzey, guney, yuxarı, aşağı və s. coğrafi terminlərdən istifadə olunur: Aşağı yer, Güney qaya, Quzey qaya, Boz quzey, Qara quzey, Qızıl quzey (Ağdam rayonu); Quzeyxırman arxı (Xocavənd rayonu); Bozgüney, Böyük güney (Xocalı rayonu); Güneyqaya, Aşağı dəyirman, Yuxarı pəyə, Yuxarı dəyirman (Füzuli rayonu), Yuxarı məhlə (Şuşa rayonu) və s.

**9. Baş vermiş hadisəyə əsasən yaranan mikrotoponimlər.** Bəzi mikrotoponimlər müəyyən zaman kəsiyində baş verən hadisəyə əsasən əmələ gəlir. Onlar ərazidə baş verən hadisənin tarixini özündə ehtiva edir. Bu onimlər insanlarla, heyvanlarla, müəyyən bədbəxt hadisə ilə bağlı olaraq əmələ gələ bilir: Teymurbatan göl, Fərhadçapan qaya, Dəvəbatıran təpə, Camışyaxalanan arxın yanı, (Ağdam rayonu): Məmmədölən köbər (Ağcabədi rayonu); Öküzuçan qaya, Öküzuçan təpə, Orduxan öldürülən yer, Tabil ölən yer (Xocalı rayonu): Xan ölən səngər, Mehdiuçan qaya, Hürü qaçan dərə ağzı (Şuşa rayonu) və s. aiddir. Xocavənd rayonu ərazisində qeydə alınan mikrotoponimləri 4 növə ayıra bilərik:

1.İnsanla əlaqədar hadisələrdən yaranmış geomorfoloji onimlər: Qurban kəl keçən dərə və s.

2. Əşya adlarından yaranmış geomorfoloji onimlər: Sapand daşı düşən yer, Pevaltökən dağı və s.

3. Heyvanla əlaqədar hadisələrdən yaranmış geomorfoloji onimlər: Dəvəbatıran çayı, İt uçan qaya, Kəlbastırılan dərəsi və s.

4.Bu və ya başqa bədbəxt hadisə adı ilə əlaqədar yaranmış geomorfoloji onimlər: Qanlı gədik, Qətl yeri, Çobanuçan və s.

5. Təbii hadisələrlə əlaqədar olaraq yaranmış mikrotoponimlər: Çaydağılan, Pağıldayan çay yeri;

6.Əraziyə getməyin çətinliyini bildirən mikrotoponimlər: Palantökən dağ silsiləsi

**10. Bəzi səbəblərdən əmələ gələn mikrotoponimlər.** Bu mikrotoponimlərə Çeyildağ, Çalağantəpə, Səsverən qaya, Sultanbud meşəsi, Xıdırlı dağ, Çıraqlıdağ, Nəmirliarx, Çatalarx, Kətəlarx, Çıldıran düzü, Çırqalı dağ (Ağdam rayonu); Bağrıqan dağı, Çeyil dağı, Bağrıqan arxı, Ballı bulaq, Qoturbulaq, Ballı bağ, Ballı qaya, Dəyə yeri (Xocavənd rayonu); və s. Bu şəkildə yaranan mikrotoponimlərdən Çeyil dağı çeyil bataqlıq, palçıqlıq, Bağrıqan arxı bağır ciyər, Ballı bulaq bal şirin suyuna görə adlanmışdır.

**11. Bu və ya başqa əşyalara oxşarlığına əsasən yaranan mikrotoponimlər.** Məsələn: Çardaqlıtəpə, Xaşdaş, Farmaştəpə, Talvarqaya, Beşikdağ, Qazan qaya, Beşikli dağ, Qılınc bağı (Ağdam rayonu); Eynək qaya, Kotan yeri, Yorğan qaya (Xocalı rayonu); Xocavənd rayonu: Qazan qaya, Beşikdağ, Yorğan dərəsi və s. Bu onimləri 3 növə ayırmaq olar:

1.Ev əşyalarına oxşarlığına əsasən yaranmış mikrotoponimlər: Beşikdağ, Beşikli dağ, Qazan qaya, Yorğan dərəsi və s.

2.Kənd təsərrüfatı əşyalarına oxşarlığına əsasən yaranmış mikrotoponimlər: Kotan dərəsi, Kotan düzü, Xış qalası və s.

3.Bu və ya başqa əşyalara oxşarlığına əsasən yaranmış mikrotoponimlər: Qələm dərəsi, Kəmər qaya, Farmaştəpə, Xaşdaş, Çardaqlıtəpə, Talvarqaya və s; Kotan dərəsi, Nağara təpəsi, Yəhər bulaq (Füzuli rayonu); Qapıqaya (Şuşa rayonu) və s.

**12. Geomorfoloji terminlərdən düzələn mikrotoponimlər.** Relyef formasına əsasən yaranan mikrotoponimlər obyektləri hündürlüyünə, alçaqlığına, şişliyinə, dikliyinə, çökəkliyinə, yumruluğuna, gödəkliyinə, əyriliyinə, uzunluğuna, eninə, darlığına,, genliyinə, yastılığına və s. olmasına görə ad alır. Məsələn: Kətəlarx, Çatalarx, Burundağ, Yanıq pəyə, Yumru təpə, Gödəkdağ, Əyriarx (Ağdam rayonu); Yastıtəpə (Ağcabədi rayonu); Əyri meşə, Gendərə, Gödək bazı, Şiş dağ, Şişdağ, Şişqaya, Uzun döş, Uzun zəmi, Çökək bulaq, Gödək arxı, Köndələn yer (Xocavənd rayonu); Başıkəsik təpə, Çınqıllıq, Çala daş (Şuşa rayonu); Çınqıl təpə, Uzunyal (Xocalı rayonu); Dikdaş, Yastı dərə, Yastı təpə, Yastı yol, Çala məhlə, Şişqaya, Şiştəpə (Füzuli rayonu) və s.

**13. İnsan və heyvanın bədən üzvlərinə oxşadılmasına görə yaranan mikrotoponimlər:** Bu şəkildə yaranan mikrotoponimlər daha çox insanın və ya heyvanların bədən üzvləri ilə oroqrafik obyekt arasında oxşarlıqla bağlıdır. Tədqiqata cəlb olunan rayon ərazisində ağız, dəhnə, bel, boğaz, boyun, baş, burun, bağırsaq, döş kimi adlar qeydə alınmışdır: Əli pəncəsi, 1 saylı Sultanbud kurqanı (təpəsi), 2 saylı Sultanbud kurqanı (təpəsi), 3 saylı Sultanbud kurqanı (təpəsi), 4 saylı Sultanbud kurqanı (təpəsi), 1 saylı Sultanbud yaşayış yeri, 2 saylı Sultanbud yaşayış yeri, 3 saylı Sultanbud yaşayış yeri, 4 saylı Sultanbud yaşayış yeri, Şalvar dərə ağzı, Ayaq Qərvənd yaşayış yeri, Ayaq Qərvənd kurqanı, Buynuztəpə, Sarıdəhnə (Ağdam rayonu); Sarıbaştəpə kurqanı, Sümüklütəpə kurqanı (Ağcabədi rayonu); Ağzı yastı

kaha, Ayaqyalınlar məhəlləsi, Başıkəsiktəpə, Bazarbaşı, Enli döş, Hürü qaçan dərə ağzı (Şuşa şəhəri); Ağbaşlı, Gecəgözlü dərəsi, Şəmsi burnu, Ağızbulaq, Gecəgözlü arxı, Gecəgözlü gölü, (Füzuli rayonu); 1 saylı Yeddigöz, 2 saylı Yeddigöz yaşayış yeri (Bərdə rayonu); Dağdöşü yalı, Daşbaşı yalı, Dəhnə dərəsi, Qızıl dərə ayağı (Xocavənd rayonu); Dəvəboynu (Xocalı rayonu) və s.

**14. Mənası məlum olmayan mikrotoponimlər:** Bəzi mikrotoponimlər vardır ki, onların mənası tam şəkildə aydınlaşdırılmamışdır. Qara Məşədiyevin fikrincə, "Elə mikrotoponimlər də vardır ki, onların mənaları bizə məlum deyildir. Məsələn, Cirlik (Yenikənd), Cuvağlar (yenə orada), Hücrələr yeri (Yenikənd), Məcitkə (Aydınkənd) və s. Görünür, bu mikrotoponimlər dialekt formasında tələffüz olunduğundan təhrif olunmuş ilkin variantlarından uzaqlaşmışdır" [Məşədiyev: 2007, s.135]. Qara Məşədiyevin fikri ağlabatandır. Çünki dialektlərimizdə bəzi sözlər işlənir ki, mənası haqqında dəqiq mülahizə söylənilməmişdir. Məsələn: Çeyil dağı mikrotoponiminin tərkibin çeyil dialektlərdə qarğıdan alaçıq, qazma; Dəyə yeri mikrotoponimində dəyə bataqlıq mənasında işlənir. Şırranı, Şaqox aşırımı, Sarenxart daşı, Ritiş qalası, Rabat, Pevaltökən dağı, Baxdik, Bakur, Buğuz qalası, Cicim ocağı, Dırmanabənd, Dibətli bağı, Hatut dərəsi, Herter, Kühul yalı, Qarxut dağı (Xocavənd rayonu) və s.

**15.Yaşayış məntəqələrindən ad alan mikrotoponimlər:** Makrotoponimlərin mikrotoponim kimi işlənməsi müəyyən zaman kəsiyində baş verir. Qarabağ bölgəsində qeydə alınan bu onimlərə aiddir: Boyəhmədli dağı, Qəhrəmanbəyli yaşayış yeri, Ağdam təpələri, Güllücə ocağı, Güllücə aşırımı, Güllücə dağı (Ağdam rayonu); Axullu bulağı, Azıx mağarası, Bəhrəmli qışlağı, Edilli yalı, Arpadüzü, Arpagədik, Dağdöşü yalı, Daşbaşı yalı, Xtsabert yalı, Kermaquç tapı, Kiş yolu, Koladağ düzü, Kuropatkono zəmisi, Qaradağlı qalası, Qaradağlı təpələri, Qarazəmi örüşü, Mısmına bağı, Muğanlı bağı, Müşkabad çökəkliyi, Ningi yeri, Salakətin təpəsi, Sor dərəsi, Sos yalı, Şahyeri yoxuşu, Şaqax aşırımı, Şəkər bağı, Tuğ yalı, Yemişan bostanı, Zavadıq meşəsi (Xocavənd rayonu); Cəmillər gölü, Daşaltı çayı, Xəlfəli çayı, Xəlfəli qışlağı, Quşçular çayı, Malıbəyli məscidi, Malıbəyli hamamı, Malıbəyli qəbiristanlığı, Mirzələr çayı, Səfixanlar çayı (Şuşa rayonu); Almalı ərazisi, Badara çayı, Ballıca çayı, Ballıca yaylası (Xocalı rayonu); və s.

**16. Təbiət hadisələrinin adından yaranan mikrotoponimlər (daşqın, sel, külək, qar uçqunu, yağış, ildırım, çovğun və s):** Yel piri, Çallı göl, Çaylıx çayı, Çaylaq çayı (Xocavənd rayonu); Yelligədik (Ağdam rayonu); Yel ocağı, Yelligədik (Füzuli rayonu); və s.

**17. Patronimlərdən düzələn mikrotoponimlər.** Patronimik mikrotoponimlər deyərkən tayfa, nəsil, tirə adlarını ifadə edən onimlər başa düşülür. Bilindiyi kimi, qədim zamanlardan müasir dövrə qədər əhali daha çox kəndlərdə, qəsəbələrdə, məhəllələrdə nəsil olaraq məskunlaşır. Bu isə antropotoponimlərin meydana gəlməsinə şərait yaradır. Patronimlərdən əmələ gələn mikrotoponimlərə bunları qeyd etmək olar: Baş Qərvənd yolu, Ayaq Qərvənd yaşayış yeri, Papravənd kurqanları, Boyəhmədli kurqanları, Məlulu təpələri, Molla Mustafa oğlu təpəsi, Papravənd daş qutusu nekropolu, Maqsudlu kurqanları, Əhmədoğlu yaşayış yeri, Papravənd bağı, Papravənd qəbiristanlığı, Seyid Mustafalar yaşayış yeri, İsmayılbəytəpə, Şükürbəyli, I və II Yüzbaşılı, 1 saylı Vəlibəytəpə, 2 saylı Vəlibəyli, 3 saylı Vəlibəytəpə, 1 saylı Sultanbud, 2 saylı Sultanbud, 3 saylı Sultanbud, 1 saylı İmamqulubəyli, 2 saylı İmamqulubəyli, 3 saylı İmamqulubəyli, 4 saylı İmamqulubəyli, 5 saylı İmamqulubəyli, 6 saylı İmamqulubəyli, 7 saylı İmamqulubəyli yaşayış yerləri, Qəhrəmanbəyli kurqanı, Malubəyli məhəlləsi, Əhmədağalı, Ağalartəpə, Hacılar, Seyid Mustafalar, Paşabəyli, Kəbləhüseynli

yaşayış yerləri, Maqsudlu məhəlləsi, Kərimlitəpə, Yusifcanlı ayrığı, Maqsudlu kurqanları, Səfərli təpələri, Namazlı təpəsi, Gəşəlitəpə, Eyvazlı yaşayış yeri, Zəngişalı kurqanını (Ağdam rayonu) və s.

**18. Posessiv (yiyəlik, aidlik, sahiblik bildirən) mikrotoponimlər:** Posessiv mikrotoponimlər müəyyən ərazinin onun sahibinə məxsus olduğunu bildirir. Yəni bu onimlərin məzmununda yiyəlik, aidlik, sahiblik məzmunu vardır. Posessiv (latınca "possessivus") və ya ktetik forma (qədim yunanca "ktetikos" sözündən olub) geniş mənada sahiblik münasibətini bildirmək üçün istifadə olunan söz və ya qrammatik konstruksiyadır. Bu ciddi mülkiyyət və ya ona bənzər digər münasibət növlərini əhatə edə bilər. Dilimizdə mövcud olan posessiv mikrotoponimlər daha çox ikinci və üçüncü növ təyini söz birləşmələri şəklində özünü göstərir. Bu təyini söz birləşmələrinin ikinci tərəfi aidlik, mənsubluq anlayışı ifadə edir. Ümumi şəkildə posessiv mikrotoponimlər sahib şəxslə ona məxsus olan yer arasında əlaqəni bildirir. Məsələn: Şükürün pəyəsi, Teymurun təpəsi, İsmayılın pəyəsi, Cümşüd bəyin evi, Ərşadın yeri, Bəhrəm bəyin evi, Molla Məhəmmədin yalı, Mir Sədi babanın təpəsi, Qarapirim ocağı, Əhmədbaba piri, Xanməmməd ocağı, Seyid Lazım Ağanın məqbərəsi, Uğurlu bəyin türbəsi, Şeyx Nigari ziyarətgahı, Xanoğlu türbəsi, Seyid Manafın qəbri, Gündoğdu baba piri, Seyid Fuğara ocağı, Seyfəddin ağa ocağı (Ağdam rayonu); və s.

**19.Memorial mikrotoponimlər: Bu mikrotoponimlər tarixi şəxsiyyətlərimizin (yazıçı, şair və s.) adından yaranır:** Süleyman Sani Axundov küçəsi, Ağamalıoğlu küçəsi, İsmət Qayıbov küçəsi, Qara İlyasov küçəsi, Tofiq İsmayılov küçəsi, Əli Bayramov küçəsi, Ziyəddin Göyüşov küçəsi, İslam Hacıyev küçəsi, Ə.Haqverdiyev küçəsi (Ağdam rayonu);

**20.İnşaat sözlərindən düzələn mikrotoponimlər:** Bu mikrotoponimlərin tərkibində daş, körpü, çınqıl, taxta, gil, əhəng və s. terminlərdən istifadə olunur. Lüğət tərkibində inşaat terminləri cəmiyyətin inkişafının nəticəsində meydana gəlir. Məsələn: Alıbəy taxtası, Çınqıllıq, Daşlı bulaq, Əhəng quyusu, Əhəng yanan, Qızıldaş qayası (Şuşa rayonu); Ağa körpüsü, Çəpdaş, Çınqıl təpəsi, Taxtapuş, Dikdaş (Xocalı rayonu); Alı körpüsü, Alı körpüsü yeri, Taxta körpü (Füzuli rayonu); Dəmirli yal (Tərtər rayonu) və s.

**21.Sənət, peşə, məşğuliyyət bildirən sözlərdən yaranan mikrotoponimlər:** Belə mikrotoponimlər hər hansı sənət, peşə, məşğuliyyət bildirən sözlərin əsasında əmələ gəlir. Eyni sənət və peşədən olan şəxslərin nitqində istifadə olunur. Daha çox sintetik yolla yaranır, yəni sözlərə şəkilçi artırılmaqla çoxalır. Elmira Əhmədova hesab edir ki, antroponimik etnonimlərin yaradılmasında qəbilə, tayfa, nəsil, tirə və ya tirə birliyinin başçısını adı, soyadı, ləqəbi və ya titulundan istifadə olunursa, topoetnonimlərin düzəldilməsində şəxsin ilkin mənsub olduğu yerin adından, etnoetnonimlərin formalaşdırılmasında isə ayrıldığı ilk tayfa, nəsil, tirə adından istifadə edilir. Bu qrup etnonimlərin yaradılmasında isə etnik qrup başçısının və ya üzvlərindən bir çoxunun sənət, peşə, məşğuliyyət növünü göstərən söz əsas əlamət kimi qəbul edilir. Bir sözlə, tayfa başçısı və ya tayfa hansı əlaməti ilə daha çox istifadə olunur" [Əhmədova: 2007, s.83].

Məsələn: Qatırçı yolu, Quşçular çayı (Şuşa rayonu); Quşçular çayı (Xocalı rayonu); Dəmirçi dərəsi (Xocavənd rayonu); Qaradəmirçi məhləsi (Bərdə rayonu); Dilənçilər məhləsi, Şatırlı məhləsi, (Bərdə rayonu); Dəmirçilər kurqanları (Tərtər rayonu) və s.

**22. Miflə bağlı sözlərdən düzələn mikrotoponimlər:** Məsələn: Cin qobu, Cinli gədik (Ağdam rayonu); Cinli qobu (Füzuli rayonu) və s.

Dilimizdə mövcud olan hər bir ad insan təfəkkürünün məhsulu kimi özünü göstərir. İnsan öz şüurunda coğrafi obyektin spesifik əlamətini (rəngini, süxurlarının tərkibini, obyektin ölçüsünü, səthinin bitkisiz olmasını, say tərkibini, suyunun dadını və rejimini, yerləşdiyi cəhəti, baş verən hadisəni, bu və ya digər əşyalara bənzədilməsini, insan və heyvanın bədən üzvlərinə bənzədilməsini, təbiət hadisələrini, inşaat sözlərini, miflə bağlı olan sözləri və s.) əsas tutaraq onu adlandırır. Coğrafi adlar əhalinin əkinçilik və maldarlıqla məşğul olmasının nəticəsində də yarana bilir. Mikrotoponimlərdə ərazinin kimə məxsus olması və obyektin yeri də göstərilir. Ona görə də nominasiya prosesinin araşdırılması qədim dövrdən müasir zaman kəsiyinə qədər olan toponimyaratma prosesini aşkar etməyə şərait yaradır. Bütöv şəkildə Qarabağ bölgəsinin mikrotoponimləri az araşdırılmışdır. Bu el-oba adlarını linqvistik aspektdən təhlilə cəlb etmək Qarabağ bölgəsinin mikrotoponimlər sisteminin yaradılmasına yardımçı olacaq addımlardandır.

## ƏDƏBİYYAT

1. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə, III cild, Bakı, Şərq-Qərb, 2006, 744 s.
2. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə, III cild, Bakı, Şərq-Qərb, 2006, 672 s.
3. Budaqov B. Türk uluslarının yer yaddaşı. Bakı. Elm, 1994, 272 s.
4. Əhmədova E. Azərbaycan etnonimləri (Leksik-semantik və struktur xüsusiyyətləri). Bakı, 2007, 128 s.
5. Əliyev V. Azərbaycan toponimiyası. Bakı, Nurlan nəşriyyatı, 1999, 278 s.
6. Həbibli R. Tətbiqi onomastika. Elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2021, 330 s.
7. Məmmədov N. Toponimika, Bakı, Bakı Universiteti nəşriyyatı, 2007, 408 s.
8. Məşədiyev Q. Azərbaycan toponimlərinin tarixi-linqvistik təhlili. Bakı, Nurlan nəşriyyatı, 2007, 231 s.

**Ayshen Ismayilli**

**MICROTOPONYMS ORIGINATED MAINLY ON THE SPECIFIC SYMPTOMS OF THE KARABAKH REGION**

## SUMMARY

The history of any place's name goes back to ancient times. People are attracted to the area by its relief structure, flora and fauna, etc. named after The names of places in our language are formed as a result of people's understanding of the world around them. According to the size and smallness of the area, toponyms are divided into 2 groups: macrotoponyms and microtoponyms. Macrotoponyms refer to the names of large geographical objects. Microtoponyms (small place-names that are not recorded on maps and are used in a narrow syntagmatic context (in the speech of the population living in a certain area). Such onims (small mountain, valley, hill, steppe, plain, gobo, yurt, place, road, gully, slope, mane , neighborhood, trail, bridge, cliff, cliff, ruin, cemetery, small river, spring, lake, pond, mound, clearing, meadow, winter garden, hearth, pier, shrine, tomb, garden, passage, etc.) characteristic of objects determines its characteristics. Then the nomination process is carried out. At this time, various methods can be used. There are characteristic methods and means of the nomination process. The emergence of any geographical object manifests itself as a result of certain historical events, and the geomorphological structure of the place is also taken as a basis.

**Key words:** *Karabakh, microtoponym, macrotoponym, geographical object, nomination.*

**Айшан ИСМАИЛЛЫ**

**МИКРОТОПОНИМЫ, ВОЗНИКШИЕ В ОСНОВНОМ НА КОНКРЕТНЫХ ПРИЗНАКАХ КАРАБАХСКОЙ ОБЛАСТИ**

**РЕЗЮМЕ**

История именования любого места восходит к глубокой древности. Названия местности люди давали исходя из ее рельефа, флоры и фауны и т.д. Топонимы,существующие в нашем языке,образованы в результате понимания людьми окружающего мира  По размеру и малости площади топонимы делятся на 2 группы: макротопонимы и микротопонимы. Макротопонимы обозначают названия крупных географических объектов. Микротопонимы - мелкие топонимы, не фиксируемые на картах и употребляющиеся в узком синтагматическом контексте. (в речи населения, проживающего на определенной местности). Такие онимы (небольшая гора, долина, холм, степь, равнина, дом, место, дорога, балка, склон, грива, окрестности, тропинка, мост, крутой, обрыв, развалина, кладбище, речка, родник, озеро, пруд, курган, прогулка, луг, зимовье, очаг, пристань, святыня, могила, связка, переход и др.) определяет характеристики объектов.Затем осуществляется процесс номинации. В это время могут использоваться различные методы. Характеристики процесса номинации есть методы и средства. Появление любого географического объекта является результатом определенных исторических событий, а также за основу берется геоморфологическое строение места.

**Ключевые слова:** *Карабах, микротопоним, макротопоним, географический объект, номинация.*